Qədim Diyar Oktyabr 2026, Cild: 8, Sayı: 10, s. 89−95
Ancient Land October 2026, Volume: 8, Issue: 10, pp. 89−95
DOI: https://doi.org/10.36719/2706-6185/64/89-95

Azərbaycan mühacirlərinin Almaniyada fəaliyyəti: Fuad Əmircan

Vüqar Abdullayev

Xülasə. *Məqalə İkinci Dünya müharibəsi illərində və müharibədən sonra Almaniyada yaşayan legioner azərbaycanlıların həyatında mühüm rol oynayan, onların SSRİ yə qayıtmaması uğrunda mübarizə aparmış, azərbaycanlı vətənpərvər, ziyalı, siyasi xadim, jurnalist Fuad Əmircanın həyatı və Almaniyadakı fəaliyyətindən bəhs edir. Müəllif məqalədə Fuad Əmircanın İkinci Dünya müharibəsi illərində Almaniyanın Münxen şəhərində yerləşən əsir düşərgələrindəki azərbaycanlıların bir araya gətirilməsində və müharibədən sonrakı illərində onların taleyinin həllində M.Ə. Rəsulzadə, F. Düdənginski, S. Təkinər. F. Məmmədov, M. Musazadə, M. Muradlı kimi azadlıq mücahidləri ilə çiyin-çiyinə yorulmaq bilmədən çalışmış Fuad Əmircanın Almaniyadakı mühacir fəaliyyətindən söz açır. Fuad Əmircan Almaniyada azərbaycanlı legionerlərə istər müharibə illərində, istərsə də müharibədən sonra arxa-dayaq olmaqla bərabər, bu ölkənin siyasi və ictimai həyatında da yaxından iştirak etmiş, Almaniyada nəşr olunan "Təsviri-Əfkar", "Azərbaycan", "Hücum" qəzetlərində və "Milli Birlik" jurnalında öz məqalələri ilə çıxış etmişdir. İkinci Dünya müharibəsindən sonra onun "Qafqaz İstiqlal Komitəsi"nin yaradılmasında Həsən Kərbəla (Doktor Orous), İsmayıl Əkbər, Şamil Atabəy kimi vətən fədailəri ilə birlikdə çalışması və onların özü haqqında bəzi məlumatlar verilmişdir. Eyni zamanda onun jurnalist kimi fəaliyyətində "Azərbaycan" qəzetinin redaktoru olan Məcid Musazadə ilə birlikdə çalışmasından da bəhs olunur. Sovet ideologiyasına, stalinizmə və bolşevizmə qarşı barışmaz mübariz olan Fuad Əmircan nəinki azərbaycanlıların, habelə bütün Qafqaz xalqlarının azadlığı və suverenlik uğrunda mübariz olmuşdur. Məqalədə həmçinin Fuad Əmircanın siyasi xadim kimi fəaliyyətindən, onun müharibədən sonra Avropa parlamentində Türkiyə dövlətini təmsil etməsindən də söz açılır. Habelə bu böyük şəxsiyyətin "Amerikanın səsi" radiosunda fəaliyyətindən də bəhs olunur.*

Açar sözlər: *İkinci Dünya müharibəsi, Azərbaycan legionerləri, Fuad Əmircan, Almaniyadakı fəaliyyəti, jurnalist və siyasi xadim kimi fəaliyyəti*

Milli Azərbaycan Tarix Muzeyi, Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: abvugar@yahoo.de
Daxil oldu: 2 May 2026; Qəbul edildi: 16 Avqust 2026; Onlayn dərc edildi: 28 Oktyabr 2026
© Müəllif(lər) 2026. Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

The Activities of Azerbaijani Émigrés in Germany: Fuad Amircan

Vugar Abdullayev

Abstract. *This article examines the life and activities in Germany of Fuad Amircan – an Azerbaijani patriot, intellectual, political figure, and journalist. Amircan played a pivotal role in the lives of Azerbaijani legionnaires residing in Germany during and after World War II and campaigned tirelessly to prevent their forced return to the USSR.*

The article highlights Amircan's work as an émigré in Germany, detailing his tireless, collaborative efforts alongside fellow freedom fighters – such as M.A. Rasulzadeh, F. Dudanginski, S. Takinar, F. Mammadov, M. Musazadeh, and M. Muradli – to unite Azerbaijanis held in prisoner-of-war camps in Munich during the war and to determine their fates in the post-war years. In addition to supporting Azerbaijani legionnaires in Germany –both during and after the war – Fuad Amircan played an active role in the country's political and social life, contributing articles to German-published newspapers such as "Təsviri Əfkar", "Azərbaycan", and "Hücum", as well as the journal "Milli Birlik". The text also details his post-World War II collaboration with dedicated patriots like Hasan Karbala (Dr. Orouz), Ismayil Akbar, and Shamil Atabay in establishing the "Caucasus Independence Committee". Furthermore, it highlights his work as a journalist alongside Majid Musazadeh, the editor of the "Azərbaycan" newspaper. An uncompromising opponent of Soviet ideology, Stalinism, and Bolshevism, Fuad Amircan fought for the freedom and sovereignty not only of Azerbaijanis but of all Caucasian peoples. The article also discusses his political career, including his representation of the Turkish state in the European Parliament after the war, and touches upon his work with "Voice of America" radio.

Keywords: *World War II, Azerbaijani legionnaires, Fuad Amirjan, activities in Germany, work as a journalist and political figure*

National Museum of History of Azerbaijan, PhD in Art Studies, Baku, Azerbaijan
E-mail: abvugar@yahoo.de
Received: 2 May 2026; Accepted: 16 Agustos 2026; Published online: 28 October 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Məlum olduğu kimi, 1941-ci il 22 iyunda Alman qoşunları SSRİ üzərinə heç bir xəbərdarlıq etmədən hücuma keçdilər. Halbuki 23 avqust 1939-cu ildə sovetlərlə Almaniya arasında "Müharibə etməmək haqqında müqavilə" imzalanmışdır. Stalin, Molotov, Rittentrop SSRİ tərəfindən casus kimi Almaniyada fəaliyyət göstərən Rixard Zorge Alman faşizminin SSRİ yə hücum edəcəyi tarixi və hətta saatı haqqında məlumatı Stalinə göndərsə də, özündən razı olan Stalin Hitlerdən başqa heç kimə inanmaq istəməmişdir.

Uzun müddətli və böyük itkilərlə davam edən İkinci Dünya müharibəsi haqqında qalaq-qalaq kitablar yazılmış və sənədli və bədii filmlər çəkilmişdir. Müharibə illərində Azərbaycan xalqının döyüşkən ruhlu əzmkar övladları misli görünməmiş qəhrəmanlıqlar göstərmiş, istər ön, istərsə də arxa cəbhədə əzimlə çalışmışlar. Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi qəhrəman övladlarınız ölümün gözünə dik baxaraq ölməzliyə qovuşmuşlar. Faşizm üzərində qələbəni yalnız öz adına yazan Rusiya 2025-ci il 9 mayda Moskvada, Qızıl meydanda Qələbə bayramının 80 illiyini qeyd etməklə yenidən özünü bütün dünya ölkələri qarşısında gülünc vəziyyətdə qoymaqdan çəkinmədi, çünki faşizm üzərində qələbədə tək Rusiya deyil, digər respublikalar, o cümlədən Azərbaycan da, onun qəhrəman övladları da əzmkarlıqla vuruşmuş və xeyli itkilər vermişdir. Şübhəsiz, Azərbaycanın nefti olmasaydı, SSRİ müharibədən qalibiyyətlə çıxa bilməzdi. Elə Hitleri də SSRİ yə şirnikləşdirən faktlardan biri də Azərbaycan, onun nefti və sərvətləri olmuşdur.

Müharibənin qəfil başlaması azərbaycanlılar üçün də gözlənilməz oldu və bu müharibənin ilk günlərində xeyli azərbaycanlı cəbhədə öldü və əsir düşdü. Azərbaycan Cümhuriyyətinin süqutuna səbəb olan Sovet İttifaqına qarşı azərbaycanlı əsgərlərdə olan nifrət, bolşevizmə qarşı olan narazılıq bəzi əsir düşmüş azərbaycanlıların almanların tərəfində vuruşma meylini artırdı. Həmin illərdə Məmmədəmin Rəsulzadə, keçmiş Sovet zabiti, mayor Əbdülrəhman bəy Fətəli bəy Düdənginski

azərbaycanlı əsirlərin bir legion halında birləşdirilməsi üçün xeyli əmək sərf etdilər və bununla da azərbaycanlı əsirləri soyqırımdan xilas etmiş oldular. Hələ müharibənin ilk illərində çoxsaylı azərbaycanlı əsirlər Almaniyaya aparılmışdı. Əsirlərin milli mənsubiyyətlərə görə ayrılması, onlara işgəncə verilməsi, SSRİ yə qarşı casusluğa məcbur edilməsi və SSRİ yə qarşı döyüşməsi təklifləri edilmişdi. O zaman Almaniya tərəfində keçən azərbaycanlı əsirlərin sayı 150 minə yaxın olmuşdur (Əhmədli, 2017).

İkinci Dünya müharibəsində əsir düşən azərbaycanlıların taleyi, onların bir legionda birləşdirilməsi məsələsi, M.Ə. Rəsulzadə, F. Düdənginski, Süleyman Təkinər, Fərman Məmmədov, Məcid Musazadə, Murad Muradlı, Məhəmməd Əmircan və Fuad Əmircan kimi vətənpərvər azərbaycanlılar tərəfindən qarşıya qoyulan ən vacib məsələlərdən olmuşdur. Müharibənin ilk illərində əsir düşən azərbaycanlılar ağır işgəncələrə məruz qalmışdırlar (Əmrahov, 2023). Həmin illərdə azərbaycanlıların bir legion halında birləşməsində Fuad Əmircanın da böyük rolu olmuşdur. 1943-cü il noyabrın 6-da Almaniyada keçirilən Milli Azərbaycan qurultayında çıxış edərək "Daxildə və xaricdə gedən bu amansız mübarizəmizin bir tək ilham mənbəyi vardır: 28 MAY!",- deyən Fuad Əmircan 1911-ci ildə Bakıda anadan olmuşdur. Atası Əbdüləli Əmircan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın Maliyyə naziri olmuşdur (Tahirli, 1998). Fuad Əmircan ilk təhsilini Türkiyədə almış, sonralar isə təhsilini Fransa və Almaniyada davam etdirmişdir. 1941-ci ildə "Təsviri Əfkar" qəzetinin müxbiri kimi Almaniyaya gələn Fuad Əmircan bu ölkədə 1961-ci ilə qədər mühacir həyatı yaşamışdır. O illərdə Almaniyada nəşr olunan "Azərbaycan", "Hücum" qəzetləri və "Milli Birlik" jurnalı ilə əməkdaşlıq etmişdir (Tahirli, 2005). "Azərbaycan" qəzeti ilə əməkdaşlığı onu qəzetin ilk və son redaktoru olan Məcid Musazadə ilə əməkdaşlığa gətirmişdir.

Məcid Musazadə 1914-cü ildə Azərbaycanda İsmayıllı rayonun Qarsanlı kəndində anadan olmuşdur. Görkəmli ədəbiyyatçı, jurnalist, legioner, sözün əsl mənasında həqiqi Azərbaycan vətəndaşı olan Məcid Musazadə həftəlik "Azərbaycan" qəzetinin səhifələrində azərbaycanlı legionerlərin cəbhədəki şücaətindən bəhs etməklə bərabər onların özlərinin də yazdıqları məqalə, şeir və hekayələri bu qəzetin səhifələrində dərc etdirmişdir. Qəzetdə Fuad Əmircanın jurnalist və siyasi dünyagörüşünü əks etdirən məqalə və digər publisitik yazıları Almaniyada yaşayan həmyerlilərimizin diqqətini cəlb etmişdir. Onun Sovet ideologiyasının puçluğunu sübut edən yazıları Azərbaycanlı legionerlər tərəfindən sevilərək daima oxunmuşdur. Fuad Əmircan və Məcid Musazadə əməkdaşlığı həmin illərdə "Azərbaycan" qəzetinin tək azərbaycanlılar üçün yox, alman vətəndaşları üçün də məlumat bazası olmasına xidmət etmişdir, çünki qəzet Münxendə həm Azərbaycan, həm də alman dillərində nəşr olunmuşdur. Qəzetdə legionerlərdən Mirzəzadə, Qurban, Qaynar, İbrahimoğlu, Ümid və digərləri də öz yazıları ilə fəal iştirak etmişlər (Berlin Hərbi Arxivi, t.g.). Məsələn, legioner Nəbinin "Azərbaycan" qəzetində 24 oktyabr 1943-cü ildə dərc olunmuş şeirində oxuyuruq:

"Mən sənə vurğunam, Vətən,
Nə qədər şirinsən!
El bilir, aləm bilir,
Fərhad mənəm, Şirin sən!

Pəhləvanlar yurdusan,
Pələngimsən, şirimsən.
Sən mənim ürəyimsən,
Ürək bədənsiz olmaz,
Könül Vətənsiz olmaz!

Fuad Əmircan, Məcid Musazadə kimi vətən fədailərindən ruhlanan azərbaycanlı legionerlər vətənin azadlıq mücahidləri olmuşlar (Tahirli, 1998).

F. Əmircanın jurnalist kimi fəaliyyəti Almaniyadan sonra Türkiyədə davam etdirilmişdir. Lakin o təkcə jurnalist deyildi, həm də siyasi mühacir idi (Tahirli, 1998). Cümhuriyyətin tərəfdaşı kimi xaricə mühacirət etmiş Əbdüləli bəy Əmircanın oğlu idi. Sovetizmə, bolşevizmə, onun ideologiyasına nifrət edən əsl azərbaycanlı, vətənpərvər ziyalı idi (Tahirli, 2005). Almaniyada və Türkiyədə əsir düşərgələrində yerləşdirilən həmyerlilərimizin həyatına biganə qalmayan, onların Vətənə zorla qaytarılmasının qarşısını alanlardan biri idi (Yaqublu, 2005a; Yaqublu, 2005b). Bu işdə ona Almaniyada yaşayan əmisi oğlu Məhəmməd Əmircanın da böyük köməyi olmuşdur (Yaqublu, 2013).

Qeyd etməliyik ki, Fuad Əmircan öz vətəninin və xalqının mücahidi olsa da, ümumən Qafqaz xalqlarının da azadlıq mübarizəsində təbliğatçı və təşviqatçı olmuşdur. O, bütün Qafqazın suverenliyi uğrunda mübarizənin öndə gedənlərindən olmuşdur (Abdullayev, 2024).

Fuad Əmircanın İkinci Dünya müharibəsindən sonrakı fəaliyyəti, məhz Sovet ideologiyasına qarşı mübarizə olmuşdur. Siyasi mühacir kimi onun Münxendə "Qafqaz İstiqlal Komitəsi"nin yaradılmasında Həsən Kərbəla (Doktor Orous), İsmayıl Əkbər, Şamil Atabəy kimi azadlıq mübarizləri ilə bir arada çalışması bunun bariz nümunəsidir (Tahirli, 1998).

Fuad Əmircanın jurnalistik fəaliyyəti Avropa ölkələrində nəşr olunan qəzet və jurnallarda da öz əksini tapmışdır (Yaqublu, 2013). Türkiyədə türk dilində nəşr olunan "Birleşik Qafqasiyya" jurnalında dərc olunan məqaləsində Qafqaz xalqlarının azadlığı uğrunda mübariz kimi çıxış edən Fuad Əmircan həm də mühacir mətbuatımızın inkişafında böyük rol oynamışdır (Tahirli, 1998).

Yeri gəlmişkən, Fuad Əmircanın yaxın silahdaşlarından biri olan Doktor Oroyusun mühacir fəaliyyəti də həmin illərdə böyük əhəmiyyətə malik olmuşdur. Əsl adı Həsən Kərbəla olan bu Azərbaycanlı mühacir əslən Qazax rayonundandır. 1891-ci ildə anadan olmuşdur. Xarkov Tibb Universitetinin məzunu olan olan həmyerlimiz hələ Cümhuriyyətin qələbəsindən əvvəl gizli "Musavat" partiyasının üzvlərindən olduğu üçün hətta həbs cəzasına da məhkum edilmişdi (Abdullayev, 2024).

Məmməd Əmin Rəsulzadə, Məcid Musazadə, Süleyman Təkinər, Fətəli bəy Düdənginski Fuad Əmircan tərəfindən yaradılan Azərbaycan Milli Komitəsinin işində də Doktor Oroyusun fəaliyyəti qeyd olunmuşdur. Bu haqda N. Cabbarlı və N. Berlet kimi də tədqiqatçıların yazılarında qeyd olunmuşdur (Cabbarlı, 2007; Devlet, 2023).

Fuad Əmircanın yaxın silahdaşlarından olan İsmayıl Əkbər də 1948 ci ildən etibarən Azərbaycan siyasi mühacirlərinin əsas təşkilat mərkəzi olan "Azərbaycan Milli Komitəsi" ndə fəal iştirak etmişdir. O, təşkilatın işi ilə bərabər daha başqa mühüm istiqamətə də yönələrək "Radio Liberti" ilə əməkdaşlıq etmişdir. Bu radionun Münxendəki kataloqunda Azərbaycan dili xidmətinə aid ayrıca materiallar arasında İsmayıl Əkbərin adı xüsusi olaraq göstərilir. Onun üçün ayrıca "Akber, İsmayıl" adlı qovluğun mövcud olması da göstərilir (Devlet, 2023).

Ümumiyyətlə, İsmayıl Əkbər və Doktor Oroyusu Fuad Əmircan ilə birləşdirən əsas cəhət onların "Azərbaycan Milli Komitəsi"ndə bir araya gəlməsi ilə bərabər hər üçünün jurnalistikaya, ədəbiyyata bağlılığı idi. Özlərində siyasi rəhbər keyfiyyəti ilə bərabər ədəbiyyatı birləşdirmələri, onları Azərbaycana, azərbaycançılığa qəlbən yaxın vətənpərvər kimi xarakterizə edir (Yuşkeviç, 2024).

Fuad Əmircanın digər məsləkdaşı olan Şamil Atabəy "Azərbaycan Milli Komitəsi"ndə təmsil olunmasa da İkinci Dünya müharibəsi illərində Almaniyada ən çox nəşr olunan "Azərbaycan" qəzetindəki yazıları ilə onun həmkarına çevrilmişdir. Stalin idealogiyasına qarşı barışmaz mübarizlərdən biri olan Şamil Atabəy "Kommunistlərin ideoloji işləri" məqaləsində yazırdı ki, "Pravda qəzetinin hər bir baş məqaləsi insanın şəxsiyyətini öldürən, insan vicdanına ləkə yaxan, insanı Kremlin kor bir aləti mənsəfinə endirən ən dəhşətli vasitədir" (Yaqublu, 2005a).

Nəsiman Yaqublu "Azərbaycan legionerləri" kitabında (2005, s. 4) Fuad Əmircanın "Dəryal" təxəllüsü ilə yazılarının müxtəlif jurnallarda çap olunduğundan bəhs edir. Nəsiman Yaqublu Fuad Əmircanın əslən Şəkidən olması haqqında yazır və "Təsviri-Əfkar" qəzetində bəzən "Səlim Sabit" təxəllüsündən də istifadə etdiyini qeyd edir (Yaqublu, 2005a). Onun jurnalist kimi "Zaman", "Son Poçta", "Xəbər", "Cümhuriyyət" qəzetlərindəki fəaliyyətindən bəhs edərək Fransada Siyasi Elmlər İnstitutunda, Almaniyada Hüquq fakültəsində təhsil aldığından bəhs edir. Eyni zamanda Fuad Əmircan Məmmədəmin Rəsulzadə ilə əsası bu şəxs tərəfindən qoyulan (1923-cü il) "Yeni Qafqaziyyə" jurnalında da əməkdaşlıq etmişdir (Yaqublu, 2013; Cabbarlı, 2007).

Fuad Əmircan siyasi mühacir olmaqla bərabər siyasi xadim kimi də fəaliyyət göstərmişdir. İkinci Dünya müharibəsindən sonra o Avropada Türkiyə dövlətini təmsil edərək Avropa parlamentində bu dövlətin təmsilçisi omuşdur. 1955-1961-ci illərdə Almaniyanın Bonn şəhərində Türkiyə səfirliyinin attaşesi vəzifəsində çalışmışdır. 1961-ci ildə yenidən Türkiyəyə dönən F. Əmircan Türkiyə mətbuat işləri komitəsində direktor müavini kimi fəaliyyət göstərmişdir. O, 1970-ci ildən "Amerikanın səsi" radiosunun Türkiyə şöbəsinin direktoru olmuşdur. Onun yaxın silahdaşı İsmayıl Əkbər isə Almaniyada fəaliyyət göstərən "Amerikanın səsi" radiosunda çalışmışdır. Ayrı-ayrı ölkələrdə çalışsalar da, Fuad Əmircan və İsmayıl Əkbər, hər iki məsləkdaş bu radiodakı fəaliyyətləri müddətində eyni bir ideyaya – Sovetizmə qarşı mübariz olma ideyasına sadiq qalmışlar. 1993-cü ildən F. Əmircan həsrətində olduğu Vətəninə – Azərbaycana gəlməyə nail olmuş və bir neçə il sonra – 1995 ci il mayın 8-də Almaniyanın Bonn şəhərində vəfat etmişdir. Fuad Əmircan Türkiyənin İstanbul şəhərində ailə qəbiristanlığında dəfn edilmişdir (Yaqublu, 2005a).

Metodlar

Məqalədə tədqiqatın metodoloji əsasını Fuad Əmircanın İkinci Dünya müharibəsi illərində Almaniyanın Münxen şəhərində əsir düşərgələrində məskunlaşan Azərbaycanlı legionerlərin bir araya gətirilməsi, onların bir legionda birləşdirilməsində Məmmədəmin Rəsulzadə, F. Düdənginski və digərləri ilə bərabər çalışması təşkil etmişidir. Eləcə də İkinci Dünya müharibəsindən sonra Azərbaycanlı legionerlərin SSRİ-yə qaytarılmamasındakı rolu da qeyd edilmişdir. Eyni zamanda məqalə Fuad Əmircanın həyatını, onun jurnalist kimi fəaliyyətini də tədqiq edir. Stalinizmə, bolşevizmə, ümumən Sovetə qarşı barışmaz mübariz olan Fuad Əmircanın siyasi xadim kimi fəaliyyətinin tədqiqi də məqalənin metodoloji əsaslarındandır.

Nəticə

İkinci Dünya müharibəsi illərində Almaniyada əsir düşən azərbaycanlı əsgərlərin alman əsir düşərgələrindən xilası, onların bir legion halında birləşməsində Fuad Əmircanın da böyük rolu olmuşdur. Müharibədən qalib çıxmış SSRİ-nin bütün təkidlərinə və tələblərinə baxmayaraq, Almaniyada qalan azərbaycanlı legionerlərin bir qisminin qorunaraq bu ölkədə saxlanılması və onların gələcək həyatlarının təşkilində Fuad Əmircan əsil azərbaycanlı vətənpərvər ziyalı kimi çalışmışdır. Sovet ideologiyasına, sovetizmə qarşı barışmaz mübariz olan Fuad Əmircan bu ideologiyanın puçluğunu öz jurnalist qələmi ilə əməkdaşlıq etdiyi Almaniyada, Türkiyədə nəşr olunan qəzet və jurnallarda dərc etdirdiyi məqalələrdə də sübut etmişdir. Vətən həsrətilə yaşayan siyasi xadim, jurnalist, publisistə ömrünün son illərində vətəni ziyarət etmək də müyəssər olmuşdur. Azərbaycanın suverenliyi, azadlığı uğrunda mübariz olan Fuad Əmircan Azərbaycanın şanlı hərb tarixinin səhifələrində özünə yer alan mühacidlərimizdəndir.

Müzakirə

Aparılan tədqiqat işində Fuad Əmircanın Almaniyada mühacir həyatı yaşadığı dövrdəki fəaliyyəti, azərbaycanlı legionerlərin İkinci Dünya müharibəsi illərində vahid legion halında birləşməsi

istiqamətindəki təşəbbüsləri və müharibədən sonrakı dövrdə onların taleyi ilə bağlı məsələlər araşdırılmışdır. Xüsusilə, azərbaycanlı legionerlərin Almaniyada yerləşdirilməsi və onların Sovet İttifaqına geri qaytarılmaması istiqamətində həyata keçirilən fəaliyyətlər məqalədə öz əksini tapmışdır. Bu baxımdan, Fuad Əmircanın mühacirət dövründəki fəaliyyəti, onun azərbaycanlı legionerlərin gələcəyi ilə bağlı məsələlərdə iştirakı və bu istiqamətdə göstərdiyi səylər tədqiqatın əsas müzakirə mövzularından birini təşkil edir.

Habelə məqalədə Fuad Əmircanın jurnalist və siyasi xadim kimi fəaliyyəti, onun mühacirət mühitindəki mövqeyi və Azərbaycan məsələsinin gündəmdə saxlanılması istiqamətindəki fəaliyyəti də nəzərdən keçirilir. Onun jurnalistik fəaliyyəti və siyasi mövqeyi yaşadığı dövrün tarixi-siyasi şəraiti ilə əlaqəli şəkildə qiymətləndirilir. Tədqiqat Fuad Əmircanın fəaliyyətinin müxtəlif istiqamətlərini bir arada nəzərdən keçirməklə onun Azərbaycan mühacirət tarixindəki yerinin və rolunun daha ətraflı öyrənilməsinə imkan yaradır. Eyni zamanda, məqalədə müharibə dövründə və müharibədən sonrakı illərdə azərbaycanlı mühacirlərin qarşılaşdıqları problemlər, onların gələcəyi ilə bağlı məsələlər və siyasi fəaliyyətlərinin tarixi əhəmiyyəti diqqət mərkəzində saxlanılır.

Nəticə

Beləliklə, Fuad Əmircanın fəaliyyətini bir neçə istiqamətlərdə təhlil etmək vacibdir. Hər şeydən əvvəl, o, vətənpərvər ziyalıdır. O, Azərbacyan, onun azadlığı, suverenliyi uğrunda döyüşən bir mücahiddir.

Fuad Əmircan Almaniyada İkinci Dünya müharibəsi illərində döyüşən legionerlərimizə ideoloji rəhbər, arxa və sipər olmuşdur. Onların müharibədən sonrakı həyatında çox böyük rol oynamışdır. Fuad Əmircan siyasi xadim olmuşdur. O, bütün həyatını siyasətə, bolşevizm ideologiyasına qarşı mübarizəyə həsr edərək, Türkiyə, Almaniya və digər Avropa ölkələrində siyasətlə məşğul olan dövlət adamı kimi fəaliyyət göstərmişdir (Tahirli, 2005).

Fuad Əmircanın jurnalistlik fəaliyyəti onun Türkiyədə, Almaniyada, ABŞ-da bu sahədə çalışan qələm sahibləri arasında da şöhrətləndirmişdir. Azərbaycan adlı Vətənini azad və suveren görmək arzusu ilə daima mübarizə aparan Fuad Əmircan doğma diyarını ziyarət etməklə bu arsuzuna da nail ola bilmişdir.

Azərbaycan Cümhuriyyətinin yaradıcılarından olan Fuad Əmircan Məmmədəmin Rəsulzadənin yaxın silahdaşı kimi İkinci Dünya müharibəsi illərində azərbaycanlı legionerlərin həyatında çox böyük rol oynamışdır. Müharibədən sonrakı illərdə də legionerlərin Almaniyada yaşaması və Alman cəmiyyətində layiqli yer tutmasında Fuad Əmircanın bir vətənpərvər kimi zəhməti əvəzedilməzdir.

Fuad Əmircanın çoxşaxəli fəaliyyəti onu azadlıq mücahidi, jurnalist və siyasi xadim kimi hərb tariximizdə şöhrətləndirmişdir.

Ədəbiyyat

Abdullayev, V. (2024). Azərbaycan mühacirlərinin Almaniyada fəaliyyəti. *Tarix, İnsan və Cəmiyyət, 3*(44), 112–118. https://adpu.edu.az/images/adpu_files/elm/elmi-jurnallar/03tic/tic-3-44-2024.pdf

Berlin Hərbi Arxivi. (t.g.). *Arxiv sənədləri/Fond* (PrC №3 (59). Berlin, Almaniya.

Cabbarlı, N. (2007). Süleyman Təkinər və sovet dövrü Azərbaycan ədəbiyyatı məsələləri. *Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Humanitar Elmlər Seriyası,* (1), 22–29.

Devlet, N. (2023). *"Radio Liberi" hakkında sonraki akademik araştırmalar. "*Türkiyat Araştırmaları Enstitüsü Yayınları.

Əhmədli, B. (2017). *Azərbaycan mühacirət mətbuatı: Problemlər.* Elm və təhsil.
Əmrahov, M. (2023). *Azərbaycan legionerləri: Saxtalaşdırılmış tarix və reallıqlar.* ADPU nəşriyyatı. https://dergipark.org.tr/tr/pub/atdd/article/1366408?utm_source=chatgpt.com
Tahirli, Ə. (1998). *Əbdüləlibəy Əmircanov.* Səda.
Tahirli, Ə. (2005). *Azərbaycan mühacirət mətbuatında publisistika (1921–1991-ci illər).* CBS Polygraphic Production. Ozan. https://www.preslib.az/az/book/8jgLWZNQdiUm8oB?utm_source=chatgpt.com
Yaqublu, N. (2005a). *Azərbaycan legionerləri.* Çıraq. https://www.preslib.az/az/elibrary/ebook/g60JmlUa?utm_source=chatgpt.com
Yaqublu, N. (2005b). Azərbaycan mühacirət mətbuatı. Elm və təhsil. https://mek.org.az/e-kitabxana/kitab.php?id=26690&utm_source=chatgpt.com
Yaqublu, N. (2013). *Azərbaycan milli istiqlal mübarizəsi və mühacirət mətbuatı (1923–1991-ci illər)* [Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı]. Bakı Dövlət Universiteti. https://www.millikitabxana.az/dissertations/matbuat?l=Y&utm_source=chatgpt.com
Yuşkeviç, V. (2024). Kommunizm qaçqınlarının Amerikada soyuq müharibə siyasətində rolu (1942–1957-ci illəri əhatə edir). *Şərqi Avropa tarixi,* (38), 151–164. https://eehb.dspu.edu.ua/article/view/354910?utm_source=chatgpt.com